*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   5 yanvar 2019-cu il   № 1 (2318)   Qiyməti 30 qəpik


Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Biz son illərdə hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik

*Məlum olduğu kimi, Prezident, Ali Baş Komandan İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlət başçısı problemin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll ediləcəyini bildirib.*



"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqeyimizdə qalırıq. Bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır.

Deyə bilərəm ki, münaqişənin həlli işində Azərbaycan 2018-ci ildə çox ciddi mövqelərə malik oldu. Bildiyiniz kimi, Ermənistanda 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal, rüşvətxor, xunta rejimi çökdü və bu, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin tam iflasıdır. Onu da deyə bilərəm ki, bizim Ermənistana qarşı apardığımız çox düşünülmüş, məqsədyönlü və prinsipial siyasətimiz öz bəhrəsini verdi. Biz Ermənistanı bütün regional və beynəlxalq layihələrdən təcrid edə bilmişik, Ermənistan iqtisadiyyatının çökməsində bizim payımız da kifayət qədər böyükdür. Hesab edirəm ki, bu gün münaqişənin həlli üçün yeni vəziyyət yaranır. Ümid edirəm ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər".

Ölkə rəhbəri onu da qeyd edib ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır: "Bununla yanaşı, əlbəttə, hesab edirəm ki, bizim güclü hərbi potensialımız münaqişənin həlli üçün əsas amildir. Biz son illər ərzində öz hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu dünya çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 min hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək.

Biz bundan sonra da öz hərbi qüdrətimizi artıracağıq. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur. Ancaq hər kəs bilir və bilməlidir ki, münaqişənin həlli üçün hərbi amil xüsusi rol oynayır və bundan sonra da biz hərbi qüdrətimizi artıracağıq.

Təbrikdə Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, müstəqil və azad olmayıb: "Bildiyiniz kimi, ilin əvvəlində mənim Sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə böyük təntənə ilə qeyd etmişik. Bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır.

Bu il ölkəmizdə prezident seçkiləri keçirilmişdir. Azərbaycan xalqı bir daha mənə yüksək etimad göstərmişdir, mənim fəaliyyətimə yüksək qiymət vermişdir. Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək".

## Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb

Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, yanvarın 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.

AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Xatırladaq ki, Prezident İlham Əliyev noyabrın 26-da Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

# Müdafiə naziri bayramlar münasibətilə hərbi hospitalda olub

*Dekabrın 30-da Müdafiə Nazirliyinin rəhbər heyəti Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında da olub.*



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə ümummilli lider Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyulub və ehtiram ifadə edilib.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalda müalicə olunan hərbi qulluqçularla görüşərək onların səhhəti ilə maraqlanıb və tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.



Tibb heyəti ilə görüşən Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini onlara çatdırıb və bayram sovqatlarını təqdim edib.

# Müdafiə naziri cəbhə bölgəsində yerləşən zirehli texnikaların döyüş hazırlığını yoxlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti zirehli texnikaların döyüş hazırlığını yoxlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri hərbi hissədəki şəraitlə tanış olaraq hərbi texnikalara baxış keçirib, onların heyətlərinin hazırlığını yoxlayıb və döyüş tətbiqi ilə bağlı müvafiq tapşırıqlar verib.



# 20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

# Ermənistanın Dağlıq Qarabağ münaqişəsi barədə yalan informasiya yaymaq cəhdləri ilə bağlı BMT-nin baş katibinə məktub ünvanlanıb

Ermənistanın Azərbaycanın Konstitusiyasını, BMT Nizamnaməsini, beynəlxalq hüququn normalarını və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini kobudcasına pozaraq, Azərbaycanın işğal edilmiş ərazilərində yaratdığı qondarma qurum adından BMT çərçivəsində kağızların yayılması ilə bağlı ölkəmizin Birləşmiş Millətlər Təşkilatındakı (BMT) daimi nümayəndəsi Yaşar Əliyev BMT-nin baş katibi Antonio Quterreşə etiraz məktubu ünvanlayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda Ermənistanın hərbi gücdən istifadə edərək Azərbaycan ərazilərini, o cümlədən Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal etdiyi və bu ərazilərdə bütün qeyri-ermənilərə qarşı etnik təmizləmə həyata keçirərək rasist azlıq rejimini yaratdığı qeyd olunur. Ermənistanın başladığı müharibə nəticəsində on minlərlə azərbaycanlının həyatına son qoyulduğu, şəhərlərin, qəsəbələrin, kəndlərin darmadağın edildiyi, bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından və mülklərindən zorla qovulduğu və minlərlə insanın münaqişə ilə əlaqədar itkin düşdüyü vurğulanır.

Məktubda qeyd olunur ki, Ermənistan qanunsuz rejimi təbliğ etməklə danılmaz faktları təkzib etməyə və məsuliyyətdən boyun qaçırmağa çalışır, BMT üzvlüyündən sui-istifadə edərək beynəlxalq ictimaiyyəti çirkin saxtalaşdırma yolu ilə yanıldır və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə qarşı etinadsızlığını nümayiş etdirir.

Ermənistanın bu hərəkəti onun münaqişənin sülh yolu ilə həllinin konstruktiv axtarışından uzaq olduğunu nümayiş etdirir. Ermənistanın bəyan etdiyi öhdəlikləri ilə onun əməlləri münaqişənin siyasi həlli məqsədi baxımından hər zaman ziddiyyət təşkil edib.

Vurğulanır ki, Ermənistanın BMT və digər beynəlxalq təşkilatlarda qanunsuz rejim adından yaydığı kağızlar boş və dəyərsizdir, onlar rədd edilməli və nəzərə alınmamalıdır.

Məktubda, həmçinin Azərbaycan ərazilərinin işğalını pisləyən, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmət edən, Dağlıq Qarabağı Azərbaycan Respublikasının tərkib hissəsi kimi təsdiq edən və Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilir. ATƏT-in Minsk Qrupunun 9 ölkəsi tərəfindən təsdiqlənmiş 1993-cü ilin 4 noyabr tarixli bəyannaməsinin, xüsusilə "güc vasitəsilə torpağın zəbt edilməsi qəbul edilə bilməz və ərazilərin işğalı beynəlxalq tanınma əldə etmək üçün və ya hüquqi statusun dəyişdirilməsi üçün istifadə oluna bilməz" fikrinə istinad öz əksini tapır. Eləcə də, Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin qanunsuz işğalı və bu ərazilərdə hərbi mövcudluğu məsuliyyətinin təsdiq olunduğu Avropa İnsan Haqları Məhkəməsinin Böyük palatasının "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci ilin 16 iyun tarixli qərarı xatırladılır.

# Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində döyüş sursatlarının yaradılması sahəsində yeni nəticə əldə edilib

Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində yaradılan və 125 millimetrlik tank topları üçün nəzərdə tutulmuş döyüş sursatının poliqon sınaqları keçirilib. MSN-in mütəxəssislərinin, Müdafiə Nazirliyinin döyüş texnikasının və şəxsi heyətinin iştirakı ilə aparılan sınaqlarda 125 millimetrlik tank topları üçün nəzərdə tutulmuş döyüş sursatının ballistik xüsusiyyətlərinin yoxlanılması məqsədilə Silahlı Qüvvələrin istismarında olan müasir T-90C tipli tankdan atışlar keçirilib və müsbət nəticə əldə edilib.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, yüksək dağıdıcı qüvvəyə malik 125 millimetrlik artırılmış qüvvəli qəlpəli-fuqaslı mərmili atəş yığımı Silahlı Qüvvələrin arsenalında olan T-72, T-90C tipli tanklarda quraşdırılan 125 millimetrlik tank topundan atəş aparmaq üçün istifadə olunur. Atəş yığımı düşmənin canlı qüvvəsinə, səhra tipli istehkam qurğularına, artilleriya, minaatan, raket qurğularının atəş mövqelərinə və müxtəlif növ atəş vasitələrinə zərər vurmaq üçün nəzərdə tutulub.

Atəş yığımının praktiki mərmili variantı ilə keçirilən sınaqların nəticələrinə görə döyüş sursatının yüksək ballistik xüsusiyyətlərə malik olması, etibarlılığı və xidməti davranma zamanı təhlükəsizliyi tam təsdiq edilib.

# Dövlət-xalq-ordu birliyi milli həmrəyliyin bəhrəsidir

Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələr üçün yeni əsgəri-məişət kompleksləri istifadəyə verilib.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Ən çətin dağlıq şəraitdə belə hərbi xidmət nümunəvi təşkil olunur, şəxsi heyətin xidmət və məişət şəraiti yaxşılaşdırılır. 2018-ci ildə Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Bütün bunlar həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Bu birlik və həmrəylik ordumuzun gücünü artırır. Bayram günlərində hərbi hissələrdə yeni xidmət və yaşayış binalarının istifadəyə verilməsi, əsgər və zabitlərlə görüşlərin keçirilməsi də mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidmətindən bildirilib ki, dekabrın 31-də hərbi hissələr üçün yeni əsgəri-məişət kompleksləri istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri binanın açılışını bildirən lenti kəsib.

Ali Məclisin sədri əsgərləri salamlayıb, onları Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı, eləcə də yeni əsgəri-məişət kompleksinin istifadəyə verilməsi münasibətilə təbrik edərək deyib: Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ordumuzu güclü ordular sırasına çıxarmışdır. O ordu güclüdür ki, onun müasir silahları, texnikaları var, əsgəri-məişət kompleksləri müasir tələblər səviyyəsindədir və şəxsi heyətinin yüksək döyüş ruhu vardır. Bunları Azərbaycan Ordusunun, eyni zamanda Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublika ərazisində yerləşən ordu, birləşmə, hissə və bölmələrinin timsalında görmək mümkündür. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hissələri həm müasir silah və sursata, həm də peşəkar və yüksək döyüş ruhu olan şəxsi heyətə malikdir.



Ali Məclisin sədri deyib: Güclü ordusu olan ölkə həm döyüş meydanında, həm də siyasi proseslərdə öz sözünü deyə bilir. Bu gün Azərbaycan Ordusu dövlətimizin və müstəqilliyimizin qarantıdır. Çünki ölkəmizdə ordu quruculuğu sahəsində mühüm işlər görülür. Ölkə Prezidentinin ordunun inkişafına göstərdiyi qayğının nəticəsidir ki, Azərbaycan Ordusu müasir tələblər səviyyəsindədir. Ölkəmizdə sabitliyin qorunması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi və işğal olunmuş torpaqlarımızın azad olunması ordumuzun qarşısında duran əsas vəzifələrdir. Hərbi hissə üçün yaradılan şərait də xidmətin nümunəvi təşkilinə imkan verəcəkdir. Əsgərlərin xidməti və istirahəti hərtərəfli təşkil olunacaq, qarşıya qoyulan vəzifələr isə layiqincə yerinə yetiriləcəkdir.

Ali Məclisin sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına və xidmətin təşkilində məsuliyyətin artırılacağına əminliyini bildirib, şəxsi heyətə xidmətdə uğurlar arzulayıb.

Əsgər Elnar Vəliyev minnətdarlıq edərək deyib: Bu gün hər bir əsgər dövlətin və xalqın dəstəyini hiss edir. Çətin dağlıq şəraitdə xidmətin nümunəvi təşkili üçün lazımi şərait yaradılıb. Ali Məclis sədrinin bayram günündə ön xətdə yerləşən hərbi hissədə əsgəri-məişət yaşayış kompleksinin açılışında iştirak etməsi, şəxsi heyətlə görüşməsi bunun daha bir ifadəsidir. Yaradılan şəraiti, göstərilən qayğını dərindən dərk edir, hərbi sirlərə yiyələnir, qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirməyə çalışırıq. Əmin edirik ki, zirvəsində dayandığımız bu dağlar qədər mətin, vüqarlı və yenilməzik.

Əsgər Qasım Bağırov deyib: Böyük əminliklə deyirik ki, torpaqlarımız etibarlı müdafiə olunur. Müstəqil Azərbaycanın inkişafı ordumuzun qüdrətini, şəxsi heyətin birliyini, döyüş ruhunu və qələbə əzmini daha da artırır. Yüksək dağlıq şəraitdə, düşmənlə təmas xəttində Vətənin müdafiəsində ayıq-sayıq dayanmışıq. Əsgərlərimiz dövlət qayğısını daim üzərlərində hiss edirlər. Bayram günündə Ali Məclis sədri ilə görüşümüz bizi ruhlandırır, əzm və iradəmizi artırır.

Əsgərlər Elnar Vəliyev və Qasım Bağırov yaradılan şəraitə görə şəxsi heyət adından minnətdarlıq edib, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Ali Məclisin sədrinə təbriklərini çatdırıblar.

Şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün" şüarını səsləndiriblər.

Ali Məclisin sədri binada yaradılan şəraitlə və xidmətin təşkili ilə maraqlanıb.

Məlumat verilib ki, ikimərtəbəli əsgəri-məişət kompleksində əsgər və zabit yataqxanaları, tibb məntəqəsi, növbətçi otağı, ideoloji sinif, zabitlər üçün iş otaqları, silah və digər xidməti otaqlar, mətbəx, yeməkxana, əşya və ərzaq anbarları, əsgərlər üçün ləvazimatların satışı mağazası, hamam-camaşırxana və qazanxana yerləşir. Binada xidmətin günün nizam qaydalarına uyğun təşkili, əsgərlərin normal qidalanması və sağlamlıqlarının qorunması üçün hərtərəfli şərait yaradılıb.

Həyətdə sıra meydanı və idman şəhərciyi salınıb, texnika saxlancı tikilib. Burada hərbi texnika və avtomobillərin saxlanması, təlimata uyğun istifadə və istismarı, eləcə də döyüş növbətçiliyinin düzgün təşkili üçün hərtərəfli şərait vardır. Şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədi ilə istirahət guşəsi istifadəyə verilib, ərazidə abadlıq işləri görülərək yeni asfalt yol salınıb.

Ali Məclisin sədri ön xətdə xidmətin təşkili və döyüş növbətçilyinin aparılması ilə bağlı tapşırıqlar verib.

* * *

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov hərbi hissənin əsgəri-məişət yaşayış kompleksinin də açılışında iştirak edib.

Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri açılışı bildirən lenti kəsib.

Ali Məclisin sədri şəxsi heyəti Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı, o cümlədən əsgəri-məişət kompleksinin istifadəyə verilməsi münasibətilə təbrik edərək deyib: Bu gün muxtar respublikada ordu quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilir. Ordu quruculuğu sahəsində görülən işlər onun silah təminatı və döyüş qabiliyyətinin artırılması ilə yanaşı, həm də şəxsi heyət üçün müasir əsgəri-məişət komplekslərinin tikilməsi ilə ölçülür. Bu gün muxtar respublikada yerləşən ordu, birləşmə və hissələr istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Muxtar respublikanın ərazisi etibarlı qorunur, ordu, birləşmə və hissələrin şəxsi heyətlərinin döyüş qabiliyyətini artırmaq üçün tədbirlər görülür, hərbi hissələr müasir silah-sursatla təmin olunur, təlimlər keçirilir, əsgərlərin yaşayış şəraiti yaxşılaşdırılır. Əsgəri-məişət komplekslərinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.



Ali Məclisin sədri deyib: Yaradılan şərait xidmətin nümunəvi təşkilində əsas amildir. Əgər əsgər, gizir və zabitlərin xidməti üçün lazımi şərait varsa, onda xidmət də nümunəvi təşkil olunacaqdır. Ona görə də yaradılan şəraitdən xidmətin səviyyəsini yüksəltmək üçün istifadə edilməli, bu ərazilər etibarlı qorunmalıdır. Kəndlərdə geniş abadlıq-quruculuq işləri aparılmış, məktəb binaları tikilmiş, sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılmışdır. Sərhəd yaşayış məntəqələrində bu işlər ordumuza güvənilərək həyata keçirilmişdir. Yeni əsgəri-məişət komplekslərinin istifadəyə verilməsi ordumuz üçün lazımi şərait yaradılması və xidmətin səviyyəsinin yüksəldilməsi deməkdir.

Ali Məclisin sədri şəxsi heyəti bir daha bayramlar münasibətilə təbrik edib.

Əsgərlərdən Tural Rufullayev, Əşrəf Cəfərzadə və Cavanşir Məmmədov minnətdarlıq ediblər. Qeyd olunub ki, bu gün muxtar respublikanın bütün döyüş mövqelərində xidmət birlik və həmrəylik əsasında qurulub. Torpaqlarımız etibarlı müdafiə olunur. Yaradılan şəraitin nəticəsidir ki, hər bir əsgər özünü evindəki kimi hiss edir. Bütün bunlar şəxsi heyəti daha da ruhlandırır. Şəxsi heyət hərbi sirlərə dərindən yiyələnir, qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirir.

Əsgərlər "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün" şüarını səsləndiriblər.

Yaradılan şəraitlə tanışlıq zamanı bildirilib ki, əsgəri-məişət kompleksində silah otağı, növbətçi otağı, tibb məntəqəsi, ideoloji sinif, zabitlər üçün iş otaqları, mətbəx, yeməkxana və mağaza mövcuddur. Binanın ikinci mərtəbəsində əsgər və zabit yataqxanaları istifadəyə verilib. Kompleksin ərzaq və əşya anbarları da müasir səviyyədə qurulub, soyuducu kameralar və digər zəruri avadanlıqlarla təchiz edilib. Binada hamam-camaşırxana və qazanxana da yerləşir.

Ərazidə geniş abadlıq işləri görülüb, sıra meydanı, idman sahəsi və istirahət guşəsi yaradılıb, texnika saxlancı tikilib.



Kapitan Əziz Qəfərov xidmətin təşkili üçün yaradılan hərtərəfli şəraitə görə minnətdarlıq edib.

Ali Məclisin sədri xidmətin nümunəvi təşkilində komandir heyətinin üzərinə mühüm vəzifələr düşdüyünü bildirib, şəxsi heyət arasındakı birliyin daha da möhkəmləndirilməsi və yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı tapşırıqlar verib.

Hər iki əsgəri-məişət kompleksi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunub, binalar daimi işıq, su və istilik sistemi ilə təchiz edilib.

Gətirilmiş ərzaq məhsulları hərbi hissələrin anbarlarına təhvil verilib.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və tibb işçilərinə bayram sovqatları paylanıb, müxtəlif adda ərzaq məhsulları anbarlara təhvil verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Gənc əsgərlər növbəti xidmət yerlərinə yola salındı

*Oktyabr ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış və ixtisas hazırlığı kurslarını uğurla bitirmiş gənc əsgərlərin növbəti xidmət yerlərinə yola salınması münasibəti ilə tədbir keçirildi.*





Tədbirə hazırlıqla bağlı məruzə edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərasimdə zabit, əsgər və valideynlər gənc əsgərləri ixtisas hazırlığı kursunu uğurla başa vurmaları münasibəti ilə təbrik etdilər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırıldı. "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə Naxçıvan Qarnizonu qoşunlarında xalq-ordu birliyini özündə əks etdirən silsilə tədbirlər keçirilir. Əlamətdar və bayram günlərində muxtar respublika əhalisinin, müxtəlif dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin hərbi hissələrə baş çəkərək əsgərlərə sovqat aparmaları, ictimaiyyət nümayəndələrinin və mədəniyyət kollektivlərinin əsgərlərin yanında olması artıq ənənə halını alıb. Bu gün dövlət qayğısını üzərində hiss edərək xalq-ordu birliyindən ruhlanan hərbi qulluqçularımız Vətənimizin müdafiəsində ayıq-sayıq dayanır, övladı hərbi xidmət keçən hər bir valideyn də böyük sevinc və qürur hissi keçirir. İnanırıq ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz nümunəvi xidmətləri ilə komandirlərinə və valideynlərinə hər zaman başucalığı gətirəcəklər."

Tədbirdə ixtisas hazırlığı kursunu başa vurmuş əsgərlər fiziki hazırlıq üzrə silahsız və silahlı çalışmalar kompleksini, müxtəlif atıcı silahların gözü bağlı vəziyyətdə natamam sökülüb yığılmasını, minaatan qurğularının döyüşə və səfər vəziyyətinə gətirilməsini, mina sahəsinin qurulmasını və keçidlərin açılmasını, rabitə vasitələri ilə fəaliyyət göstərilməsini, kəşfiyyat hazırlığından müxtəlif elementləri praktiki yerinə yetirdilər.

Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edildi və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırıldılar.

Bölmələrin tribuna önündən təntənəli keçidindən sonra "Əsgər marşı" ifa edildi. Beləliklə, oktyabr ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış və ixtisas hazırlığı kurslarını uğurla bitirmiş əsgərlər növbəti xidmət yerlərinə yola salındılar.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi,**
**fotolar**
**əsgər**
**Turqut KƏRİMZADƏNİNDİR**

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə hərbi hissələrdə tədbirlər keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrində, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, mərkəzi və qarnizon zabitlər evlərində tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bayram tədbirlərində yerli icra hakimiyyəti orqanları, dövlət və qeyri-hökumət təşkilatları, veteranlar, ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəxsi heyətlə görüşlər, viktorinalar, mədəni-kütləvi, vətənpərvərlik və idman tədbirləri keçirilib, hərbi qulluqçulara bayram sovqatları çatdırılıb.

Bayramlarla əlaqədar şəhid məzarları ziyarət edilib, şəhid və yaralıların ailələrinə baş çəkilib, onların övladlarına sovqatlar və hədiyyələr təqdim olunub.

Təntənəli mərasimlərdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Gəncə Qarnizonu Zabitlər Evinin və rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri şəxsi heyət qarşısında maraqlı konsert proqramları ilə çıxış ediblər.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**3 yanvar 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Sarıcalı, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**4 yanvar 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Mərzili, Füzuli rayonunun Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrə Yardım Fonduna 97 milyon manatadək vəsait yığılıb

*Yanvarın 2-dək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 96 milyon 449 min 530 manat, 213 min 577,88 ABŞ dolları, 15 min 136 avro və 5 min rubl vəsait daxil olub.*

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

Təlim

# Böyük Qələbə arzusuyla xidmət edirik

Ordu müqəddəs Vətənin qoruyucusu kimi şərəfli bir vəzifəni həyata keçirir. Hər bir müstəqil dövlət mövcudluğunu, təhlükəsizliyini ordusu vasitəsilə təmin edir. Azərbaycan mürəkkəb coğrafi regionda yerləşdiyindən, tarixən xarici hücumlara məruz qaldığından orduya böyük əhəmiyyət verilib. Bu gün torpaqlarımız ermənilərin işğalı ilə üzləşdiyindən xalqın ümid yeri yenə də orduyadı. Xalqımız ordumuzun gücünə bələddi və yaxşı bilir ki, müharibə yolu ilə tarixi torpaqlarımızı düşmən tapdağından azad etməyə qadirdir. Xalqımız inanır ki, Azərbaycan əsgəri üzərində gəzdiyi bu torpağı qoruyacaq və işğaldan azad edəcək.

"N" hərbi hissəsinin mühəndis-istehkam bölüyünün şəxsi heyətinin dərs prosesində də gördüklərimiz sübut edir ki, Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyən Azərbaycan əsgəri bir göz qırpımında Kəlbəcərə, Şuşaya, Xankəndinə... qanadlanmağa, düşmənin ayaqlarını bu torpaqlardan birdəfəlik kəsməyə hazırdır. Gördüklərimizdən bir inam hasil olur - məşğələyə cəlb olunan şəxsi heyət bir yumruq kimi mübarizə aparmağa, öhdəsinə düşən tapşırığı məsuliyyətlə və vaxtında yerinə yetirməyə, qələbə üçün canından-qanından keçməyə belə qadirdir.

Məşğələdən sonra taqım komandiri leytenant Şamil Qəhrəmanov bildirdi ki, gördükləriniz adi məşğələlərdən biri kimi görünə bilər. Amma bu məşğələlər genişmiqyaslı istiqamətdə həyata keçirilir. Bununla da şəxsi heyətimizin döyüşə hazırolma qabiliyyəti yoxlanılır. Zabit onu da bildirdi ki, mütəmadi olaraq bu tip məşğələlər keçirilir, dərslər bilavasitə atəş mövqeyində aparılır. Bu da şəxsi heyətin hazırlığında mühüm rol oynayır. Minaaxtaran peşəsinə yiyələnənlər üçün ən əsas məsələ peşəkarlıq əldə etmək və təhlükəsizlik qaydalarına əməl etməkdir. Əbəs yerə demirlər ki, "minaaxtaran ömründə bir dəfə səhv edir". Yəni bir səhv minaaxtaranın həyatı bahasına başa gələ bilər. Əgər torpaqlarımız hələ azad olunmayıbsa, bizim ölməyə haqqımız çatmır. Çünki torpaqlarımızın azadlığı uğrunda mübarizədə öldürməyə borclu olduğumuz düşmənlərimiz çoxdur.



Əsgər Əli Qurbanov qeyd etdi ki, mövcud məşğələlərin və təlimlərin sayəsində istənilən hava şəraitində, istənilən mövqedə, istənilən relyefdə minaları zərərsizləşdirməyi öyrənirlər. Minaaxtaran istənilən minanı aşkar edən və məhv edən zaman təhlükəsizlik tədbirlərinə mütləq riayət etməlidir: "Minaaxtaran ilkin olaraq əraziyə baxış keçirməli və bundan sonra əməliyyata başlamalıdır. Əməliyyat prosesində istifadə etdiyimiz detektorlardan siqnal gəldikdə həmin yer ağ üzlü işarə ilə işarələnməli və qazıntı aparılmalıdır. Həmin yerdə hərbi sursat aşkar olunarsa, qırmızı işarə ilə işarələnməli və şuplanmalıdır. Sonda bununla bağlı komandirinə məlumat verən minaaxtaran minaları kənara götürülməsi mümkündürsə kənarda, götürülməsi mümkün deyilsə yerindəcə zərərsizləşdirməlidir.

Əsgər Simran Babayev isə təcrübədə qazandıqlarına, əldə etdiyi hərbi biliklərə görə komandirlərinə minnətdarlıq etdi: "Təcrübədə qazandıqlarımız komandirlərimizin sayəsində mümkün olub. Ona görə də bütün birbaşa və bilavasitə komandirlərimə minnətdarlığımı bildirirəm. Komandirlərimizdən çox razıyıq ki, bizə xidmətin bütün incəliklərini öyrədiblər, elə indi də öyrədirlər. Yaxşı başa düşürük ki, biz öz torpağımızı qoruyuruq, onun keşiyini çəkirik. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Başqa ölkənin torpağını işğal etməmişik. Amma heç kimə imkan verməyəcəyik ki, bizim torpağımızda hökmranlıq etsin. Artıq Azərbaycan dövləti də güclü dövlətdir, ordusu da güclü ordudur. Azərbaycan əsgəri Ali Baş Komandanına, xalqına arxalanır və inanır. Azərbaycan torpaqlarının müdafiəsi uğrunda canından keçməyə hazırdır."

Əsgər Arif Rüstəmov dedi ki, heç bir dövləti ordusuz təsəvvür etmək mümkün deyil. Ordu ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısıdır. Biz də bu gün iftixar hissi keçiririk ki, Azərbaycan dövlətinin ona layiq, onun müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir olan güclü ordusu var və biz də bu ordunun əsgərləriyik.

Sonda leytenant Şamil Qəhrəmanov vurğuladı ki, keçirilən məşğələlərin, təlimlərin əhəmiyyəti danılmazdır. "Yetərincə hazırlığa malik döyüşçü və bölmələr tədris əməliyyatlarında fərqlənməyi bacarırlarsa, döyüşlərdə də düşmənə üstün gəlməyə qadirdirlər. Bir daha qarşıya qoyulan məqsəddən, tutduğu vəzifədən asılı olmayaraq, öz yerində tapşırıqları yüksək səviyyədə yerinə yetirməsinə qadir olan və vəzifələrini döyüş şəraitinə uyğun həyata keçirməyi bacaran Azərbaycan Ordusunun şəxsi heyəti ancaq Böyük Qələbəni düşünür, həmin günün arzusuyla yaşayır və xidmət edir."

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

## Adnan Zamburkan:

## Azərbaycanda gedən inkişaf prosesləri Türkiyədə sevinclə qarşılanır

*Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin böyük tarixi var. Azərbaycan Türkiyə üçün böyük önəmə malik bir dövlətdir. Azərbaycanda gedən inkişaf prosesləri Türkiyədə sevinclə qarşılanır.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Kocaeli şəhər Mədəniyyət və Turizm İdarəsinin müdiri Adnan Zamburkan bildirib. O qeyd edib ki, ulu öndərlər Mustafa Kamal Atatürkün və Heydər Əliyevin dedikləri kimi, "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", "Biz bir millət, iki dövlətik".

Adnan Zamburkan bildirib ki, 2006-cı ildən etibarən Kocaeli şəhərində fəaliyyət göstərən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası qardaş ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində mühüm layihələr həyata keçirir. Bu layihələrin bir hissəsi Türkiyənin rəsmi qurumları ilə birgə reallaşdırılıb. Kocaelidə ümummilli lider Heydər Əliyevin adına parkın, Heydər Əliyev Mədəniyyət Evinin, Xocalı şəhidləri abidəsinin açılışlarını görülən işlərə misal göstərmək olar.

Mədəniyyət və Turizm İdarəsinin müdiri vurğulayıb ki, ölkələrimizin birliyi əbədidir.

# Hərbi qulluqçuların ehtiyata buraxılmasına həsr olunmuş mərasim keçirilib

*"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" ölkə Prezidentinin müvafiq sərəncamının icrası ilə əlaqədar Müdafiə nazirinin əmrinə əsasən birlik, birləşmə və hərbi hissələrdə tədbirlər həyata keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhəboyu zonada yerləşən "N" hərbi hissəsində xidmət müddəti başa çatmış bir qrup hərbi qulluqçunun ehtiyata buraxılması ilə bağlı təntənəli mərasim keçirilib.

Tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin ifası və Dövlət bayrağının mərasimə gətirilməsi ilə başlayıb.

Sonra xidmət müddəti başa çatmış hərbi qulluqçular döyüş növbətçiliyini qəbul edən gənc əsgər yoldaşlarına rəmzi olaraq silah, zirehli jilet və dəbilqələri təqdim ediblər. Gənc əsgərlər uğurla, Vətənə şərəflə xidmət edəcəklərinə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlarına söz veriblər.

Tədbirdə Müdafiə Nazirliyi rəhbərliyinin və birlik komandirinin ehtiyata buraxılan şəxsi heyətə təbriki çatdırılıb.

Təntənəli mərasim xidmət müddətində fərqlənmiş və nailiyyətlər əldə etmiş hərbi qulluqçuların mükafatlandırılması, bayram naharı və konsert proqramı ilə başa çatıb.



# On minədək hərbi qulluqçu övladı bayram şənliklərində iştirak edib

*Müdafiə nazirinin tapşırığına əsasən, bayram günlərində Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində pulsuz yeni il şənlikləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məktəb tətili günlərində təşkil olunan bayram şənliklərində hərbi qulluqçuların ümumilikdə on minədək övladı üçün konsertlər, tamaşalar və digər mədəni-əyləncə tədbirləri keçirilib.

Bayram mərasimlərində Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Naxçıvan Qarnizonu Zabitlər Evinin və Gəncə Zabitlər Evinin, eləcə də rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri uşaqlar qarşısında maraqlı konsert proqramları ilə çıxış ediblər.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. 1980-ci illərin sonlarında yaranmış ictimai-siyasi vəziyyət və 20 Yanvar faciəsini doğuran səbəblər.**

**2. 20 Yanvar faciəsinin Azərbaycan milli-azadlıq hərəkatında yeri və rolu.**

**Mövzu:** 20 Yanvar faciəsi xalqımızın qan yaddaşıdır.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən dövri mətbuatda dərc olunan 20 Yanvar faciəsinə həsr olunmuş yazılardan və digər materiallardan istifadə etməli, dərsin zamanın tələbləri səviyyəsində keçirilməsini təmin etməli, mövzunun tarixi əhəmiyyətini, aktuallığını açıb göstərməli, 20 Yanvar faciəsi ilə bağlı qəbul olunmuş rəsmi sənədləri şəxsi heyət üçün geniş şəkildə işıqlandırmalıdır.*

*1980-ci illərin sonlarında yaranmış ictimai-siyasi vəziyyət və 20 Yanvar faciəsini doğuran səbəblər*

1980-ci illərin axırlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Azərbaycanda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı azğın cinayətləri haqlı olaraq xalq kütlələrinin hiddətinə səbəb oldu. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədinin sökülməsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Ona görə də SSRİ Dövlət Təhlükəsizlik Komitəsi (DTK) Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Naxçıvanda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törədərək ermənilərin və rusların talanını təşkil etdi.

1990-cı il yanvarın 16-da ermənilər silahlı dəstə ilə Naxçıvan Muxtar Respublikasının Kərki kəndinə hücum edərək evləri yandırdılar və köməyə gələn olmadığından kəndi axşama qədər müdafiə edən sakinlər sonra tərk etməyə məcbur oldular.

Yanvarın 18-də ermənilər Sədərəyə güclü hücuma keçdilər. Bütün Naxçıvan əhalisi ayağa qalxaraq qısa müddətdə Sədərəkdən uşaqları, qadınları və qocaları çıxardaraq düşmənə ciddi müqavimət göstərdilər və həmin hadisədə 8 nəfər şəhid oldu.

Bakıda isə gərginlik getdikcə artır, KP MK-nın binası qarşısında mitinq ara vermir və mitinq iştirakçıları respublika rəhbərliyinin istefasını qətiyyətlə tələb edirdilər. Kütləvi ixtişaşların qarşısını almaq bəhanəsi əldə etmiş SSRİ rəhbərliyi 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələri yeritməyə başladı.

Yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisini əmin edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcəkdir və belə tədbir nəzərdə tutulmayıb. Ancaq bu vaxt DTK-nın diviziyasının və desant hissələrinin Bakıya atılması başa çatmaqda idi. Onların birinci hissəsi isə yanvarın 12-də gətirilmişdi. Bu hərbi hissələrdə Şimali Qafqazda yaşayan ehtiyatdan çağırılan ermənilər də var idi.

1990-cı il yanvarın 19-da isə Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublika televiziya verilişləri dayandırıldı. Yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet qoşun hissələri küçələrə çıxıb öz etirazlarını bildirən dinc əhalini pulemyotlardan və avtomatlardan atəşə tutdu. Həmin gecə Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 131 insan qətlə yetirildi, 700-dən artıq vətəndaş yaralandı və xəsarət aldı. 20 Yanvar faciəsində azərbaycanlılarla yanaşı, Bakıda yaşayan 6 rus, 3 tatar, 3 yəhudi həlak oldu. Qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq idi.

Bakı şəhərinə 20 Yanvar tarixindən fövqəladə vəziyyət tətbiq olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar tarixli fərmanı isə ancaq yanvarın 20-də səhər saat 6-dan zirehli maşınlardan xalqa elan edilirdi. Elə həmin gün ərzində 5 nəfər dinc sakin imperiya ordusu tərəfindən güllələnir və Bakıda fövqəladə vəziyyət rayonunun komendantı general-leytenant Dubinyakın əmri də elan olunur. Əmrdə deyilirdi ki, vətəndaşların təhlükəsizliyinin qorunması, müəssisələrin iş rejiminin saxlanması, kütləvi ixtişaşların olmaması üçün yanvarın 20-dən komendant saatı elan edilir.

Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridildi, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirildi. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-yə çatdı.

Yanvarın 21-də o zaman Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev heç bir təhlükəyə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirdi. Başda Mixail Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandıraraq bu vəhşiliyə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi. Xüsusilə qeyd etmək lazımdır ki, keçmiş sovet ordusunun həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaq.

Sabiq SSRİ prezidenti Mixail Qorbaçov 1995-ci ilin aprel ayında Türkiyədə səfərdə olarkən 1990-cı il yanvar qırğınından bəhs edərkən, "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi" deyərək öz günahını etiraf etmişdir.

*20 Yanvar faciəsinin Azərbaycan milli-azadlıq hərəkatında yeri və rolu*

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların əziz xatirəsini dərin ehtiramla yad edir. 20 Yanvar hadisələri xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar eyni zamanda, xalqımızın tarixində bir qəhrəmanlıq səhifəsidir. Biz 20 Yanvarı milli matəm, hüzn günü kimi qeyd edirik, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar və insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini birləşdirərək onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu və müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan tarixində Qanlı Yanvar faciəsi kimi yadda qalan 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri daha dəqiq araşdırıldı. Müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verərək bu hadisələrin təşkilatçıları olan Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və başqalarının cəzalandırılması tələb etdi.

Sonrakı illərdə qəbul olunmuş rəsmi sənədlərdə də 20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyəti yüksək qiymətləndirilmişdir. Belə ki, yanvar faciəsində qətlə yetirilənlərin, şəhid ailələrinin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində böyük tədbirlər həyata keçirilir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edildi. Dövlət başçısının Şəhidlər xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu. 2010-cu il yanvarın 20-də Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində memorial abidə kompleksinin açılışı oldu. 20 Yanvar faciəsində şəhid olanların xatirəsini bu gün hörmətlə yad edərkən fəxrlə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq illər keçmişdir. Müstəqil Azərbaycan Respublikası dünya dövlətlərarası münasibətlər sistemində öz yerini tutaraq bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir və dönməzdir. Ancaq müstəqilliyimizin ilk illərində 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana ədalətsiz ərazi iddiası və təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olundu və bu günə qədər ərazi bütövlüyümüz bərpa olunmamışdır. Ona görə Azərbaycan Ordusunun hər bir əsgəri, giziri və zabiti bir daha dərk etməlidir ki, müstəqil Azərbaycanın ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa etməliyik.

20 Yanvar müqəddəs "ŞƏHİD" kəlməsini yenidən bütün tarixi məzmunu ilə dilimizdə canlandırdı. Əsrin əvvəllərində milli mənliyimiz və müstəqilliyimiz uğrunda şəhid olanların basdırıldığı yer sovet dövründə Dağüstü park adı ilə əyləncə yerinə çevrilərək xalqın yaddaşından silinmişdi. İndi isə müstəqilliyimiz, milli mənliyimiz və torpaqlarımızın azadlığı uğrunda canını fəda edən oğulların dəfn olunduğu bu yer yenidən xalqın ziyarətgahına çevrilib. Şəhidlər xiyabanı - dünənimizi bu günlə, bu günümüzü sabahla birləşdirən, xalqın iradəsi və qətiyyətinin nümayiş olunduğu müqəddəs bir məkandır.

Azərbaycanın istiqlalı uğrunda canlarını qurban verən şəhidlərimizin əbədi abidəsi hər bir azərbaycanlının ürəyində ucalır. Şəhidlərin uğrunda canlarını qurban verdiyi Azərbaycan dövləti bu gün beynəlxalq münasibətlər sistemində söz sahibidir. Özünün xarici siyasəti ilə böyük uğurlar qazanan Azərbaycan regionda və dünyada iqtisadi qüdrətinə, siyasi sabitliyinə görə xüsusi nüfuz sahibinə çevrilib.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması sahəsində görülən işlərlə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyini bəyan edərək demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

**Qeyd:** *Artıq 2019-cu tədris ilinin hazırlıq planına əsasən, hərbi hissələrdə döyüş və ictimai-siyasi hazırlıq dərsləri başlanmışdır. Qarşıda şəxsi heyəti gərgin dərs prosesi, çöl məşğələləri və taktiki təlimlər gözləyir. Azərbaycan Ordusunun hərbi qulluqçusunun bu dərslərdə və təlimlərdə əldə etdiyi yüksək nailiyyətlər, hər bir uğur Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs müharibədə qələbəyə bizi daha da yaxınlaşdırır. Müasir döyüşdə ancaq yüksək döyüş hazırlıqlı, silahların sirlərinə mükəmməl yiyələnmiş, mənəvi-psixoloji və fiziki cəhətdən dözümlü olan əsgər qalib gələ bilər. Hər bir Azərbaycan əsgəri bu keyfiyyətləri əldə etmək üçün komandirlər tərəfindən keçirilən tədris proqramlarını, hərbi vərdişləri yaxşı mənimsəməli, onları döyüşdə tətbiq etməyi bacarmalıdır ki, müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda həlak olmuş şəhidlərimizin qisasını almağa hazır olsun.*

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş turnir

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə müntəzəm olaraq Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsinə həsr olunmuş müxtəlif idman yarışları keçirilir. Sabahımızın zabitləri olacaq kursantlar bu yarışlarda həvəslə iştirak edərək daim həm fiziki, həm də intellektual hazırlıqlarını artırırlar.*




Bu günlərdə Azərbaycanın Milli Qəhrəmanı Əhədov Elşad Saday oğlunun xatirəsinə həsr olunmuş şahmat turniri keçirildi. Turnirdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.

Hərbi liseyin fiziki hazırlıq bölməsinin rəisi mayor Rəşad Kazımov çıxış edərək Milli Qəhrəman Elşad Əhədov haqqında geniş məlumat verdi. Bildirdi ki, qəhrəman uzun döyüş yolu keçib və torpaqlarımızın müdafiəsində böyük rəşadət göstərib.

Bölmə rəisi onu da vurğuladı ki, gənc zabitin döyüşlərdə göstərdiyi hünər və igidliyi layiqincə qiymətləndirilib. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. Ölkə başçısının 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə isə Elşad Əhədova "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Rəsmi hissədən sonra 6 komandanın qatıldığı turnirə start verildi. Yarış keçirilən zala sakitlik çökdü. Şahmat taxtası arxasında oturan kursantlar yarışda qalib gəlmək üçün daha çevik, daha ağıllı fəndlər tətbiq etməyə çalışırdılar. İştirakçılar komandaların irəli çıxarmaq üçün bütün bacarıqları ilə yarışırdılar. Necə deyərlər, fiqurları yerindən tərpətməzdən əvvəl yüz dəfə ölçüb bir dəfə biçirdilər. Hakimlər də oyunun gedişini diqqətlə izləyirdilər.

Şahmat turniri dekabr ayının 24-dən 28-nə qədər davam etdi. Bu müddət ərzində hər gün komanda üzvləri arasında yarış keçirildi. Yarışda hər komandadan 3 əsas, bir ehtiyat oyunçu iştirak edirdi. Beynəlxalq qaydalara uyğun olaraq dairəvi sistem üzrə keçirilən turnir həm komanda, həm də şəxsi xarakterlidir.

Beş gün davam edən yarışda 5-ci bölüyün kursantları daha yaxşı nəticə nümayiş etdirərək birinci yerə layiq görüldü. 2-ci yerə 6-cı bölüyün, 3-cü yerə isə 4-cü bölüyün kursantları çıxdılar. Şəxsi birincilikdə isə kursant Yusif Məmmədov daha çox xal toplayaraq birinci pilləyə yüksəldi.

Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə həsr olunmuş şahmat turnirinin qalibləri yaxın günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyi tərəfindən mükafatlandırılacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Hərbi texnikalar, silahlar*

# T-50 qırıcısı



Hava şəraitindən asılı olmayaraq cəbhə aviasiyasının perspektiv aviasiya kompleksi, beşinci nəsil T-50 qırıcısı ilk növbədə hava ərazisində üstünlüyü əldə etmək üçün nəzərdə tutulub. Lakin buna baxmayaraq T-50 qırıcısının istehsalı ondan kəşfiyyat və hücum təyyarəsi kimi istifadə etməyə imkan verir. Müasir T-50 qırıcısının silahlanmada olan Su-27 və MiQ-31 təyyarələri ilə əvəz edilməsi də planlaşdırılır. Qırıcı bəzi əsas xüsusiyyətlərinə görə Amerikanın beşinci nəsildən olan "Raptor" F-22 qırıcısını üstələyir. Təyyarənin inşası zamanı innovasiya texnologiyasından və kompozit materiallardan istifadə olunması ona müxtəlif hava şəraitində və yerüstü vəziyyətdə döyüş effektliyini artırmağa imkan verir. Maşın öz qabaritlərinə və çəkisinə görə ağır qırıcılar sinfinə aid edilir. İstismar və xidmət zamanı çox sadədir, forsajsız yüksəksəsli sürətə keçir, çox funksiyalı və yüksək manevrlidir. Müasir qırıcının əsas silahlanması xüsusi daxili bölmədə yerləşdirilib. "Hava-hava" sinifli R-77(8 ədəd) raketlərlə və yaxud 1500 kiloqramlıq (2 ədəd) idarəolunan bombalarla silahlanıb. Qırıcı yan asılqanında əlavə olaraq hava hədəflərini məhv etmək üçün iki raket də daşıya bilər. Hava döyüşlərini aparmaq üçün qırıcı səkkiz ədəd orta məsafəli RVV-SD və səkkiz ədəd uzaq məsafəli RVV-BD raketləri və xarici asılqanında isə iki ədəd yaxın məsafəli RVV-MD və RVV KS-172 raketləri ilə təchiz edilə bilər. Yerüstü hədəfləri məhv etmək üçün komplektin silahlanma bölməsinə KAB-500 (8 ədəd) əlavə olaraq RVV-MD (2 ədəd) də daxildir. Yaxın məsafədən döyüşləri aparmaq üçün bu-



run hissəsinin sağ tərəfində 30 millimetr kalibrli VIII-30-1 aviasiya topu quraşdırılıb.

Müasir T-50 qırıcısının texniki xüsusiyyətlərinə gəldikdə isə gövdəsinin uzunluğu 2214.8 metr, qanadlarının sahəsi 78.8 kvadrat metr, maksimal kreyser sürəti saatda 2600-1300-2100 kilometrdir. Qırıcının maksimal uçuş çəkisi 37 ton, maksimal uçuşu 340 dəqiqəyə qədərdir. Praktiki tavanı 20000 metrdir. Heyəti bir nəfərdən ibarətdir. Yanacaq doldurmaya qədər uçuş uzaqlığı kreyser sürəti ilə 5500-4300 kilometr, tam ştatla yüksəksəsli forsajsız sürəti 2000-1200 kilometrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən düşmən ordusunun bölmələrindən birində külli miqdarda mənimsəmə faktı aşkar edilib.

Mayor Armen Qriqoryanın bildirdiyinə görə, cinayət-istintaq qrupu tərəfindən üçüncü dağıtıcı alayında saxta sənədlər tərtib etməklə yanacaq oğurlanması faktının üstü açılıb.

Oğurluğun miqdarının böyük olması səbəbindən polkovnik Ağacanyanın göstərişinə əsasən, faktın araşdırılması məqsədilə Avanesyan soyadlı müstəntiqin rəhbərliyi ilə xüsusi istintaq qrupu yaradılıb.

Faktla bağlı araşdırma davam edir.

* * *

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərimizdə yerləşdirilən düşmən ordusunun bölmələrindən birində xidmət edən əsgərin valideynləri övladlarının xəstə olduğu, lakin müalicəyə göndərilmədiyi barədə hərbi prokurorluğa şikayət ediblər.

Əsgər anasının verdiyi məlumatda deyilir ki, 1986-cı il təvəllüdlü, Şuşadan hərbi xidmətə çağırılan Şahen Qriqoryan uzun müddətdir xəstə olmasına baxmayaraq müalicəyə göndərilmir. Əsgərin valideynləri nə qədər çalışsalar da Ş.Qriqoryanın Mardakert hərbi hospitalına göndərilməsinə nail ola bilməyiblər.

Əsgərin vəziyyəti günbəgün pisləşir və belə gedərsə, xəstəliyin ağırlaşması səbəbindən onun qulaqları kar ola bilər.

* * *

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələri bölmələrindən birində xidmət edən hərbi qulluqçunun narkotik qəbul etməsi və xidmət yoldaşlarını da buna cəlb etməsi məlum olub.

Bildirilir ki, tankeleyhinə taborun taqım komandiri Abraham Maroxyan narkotik maddəni başqa bir zabitə satarkən yaxalanıb.

Araşdırma zamanı məlum olub ki, A.Maroxyan özü də uzun müddətdir narkotik maddə aludəçisidir.

Faktla bağlı cinayət işi açılıb və zabitin tərxis olunması barədə vəsatət qaldırılıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə tərəfi Suriya ilə sərhəddə müdafiə tədbirlərini gücləndirir



Türkiyə tərəfi Suriya ilə dövlət sərhədi boyunca əlavə müdafiə tədbirləri həyata keçirməkdə davam edir.

Türkiyə Silahlı Qüvvələrinin qoşun birləşmələri ölkənin cənub-şərq bölgəsinə əlavə hərbi-texnika cəlb etməkdədir. Hələlik Türkiyə hökumətinin Suriya ərazisində həyata keçirdiyi antiterror əməliyyatlarının növbəti mərhələsinin forması və hansı bölgəni əhatə edəcəyi barədə dəqiq məlumat verilmir.

Rəsmi məlumata görə, Milli Müdafiə naziri Hulusi Akar ordu komandanları ilə birlikdə ötən il dekabrın 31-dən başlayaraq bölgəyə səfər edib. Səfər çərçivəsində hərbi hissələrdəki müdafiə vəziyyəti yoxlanılıb, əsgərlərlə bayramlaşma olub, Suriyanın Eşmə kəndində yerləşən Süleyman Şah Türbəsi ziyarət edilib.

Yeni ilin ilk günü Türkiyə-İran sərhədində yerləşən "Kurtömər Hudut" polis məntəqəsi PKK terrorçularının raket atəşinə məruz qalıb. Bir əsgər yaralanıb.

Şırnak vilayətinin Silopi və Cizre rayonlarında isə PKK terrorçularının üç dəfə ayrı-ayrı hərbi hissələrə oyuncaq təyyarə ilə tətbiq etmək istədikləri terror aktının qarşısı alınıb.

## ABŞ Okinavada "HIMARS" reaktiv yaylım atəş sistemi yerləşdirməyi planlaşdırır



ABŞ Silahlı Qüvvələri Yaponiyanın Okinava prefekturasında "HIMARS" reaktiv yaylım atəş sistemi (RYAS) yerləşdirməyi və cari il ərzində onun tətbiqi ilə ilk təlimlər keçirməyi planlaşdırır.

Bu barədə "Sankei Shimbun" qəzeti məlumat yayıb.

Məlumatda qeyd edilir ki, sistemin quraşdırılması zamanı 300 kilometr radiusa malik ATACMS ballistik raketlərindən istifadə olunması nəzərdə tutulur. Həmin raketlərdən dənizdə və quruda hədəflərin vurulması üçün istifadə edilə bilər. Bu sistem hərbi-nəqliyyat aviasiyası ilə daşına bildiyinə görə çox mobil hesab edilir. Kompleksin yerləşdirilməsi ilə ABŞ ordusunun I korpusunun məşğul olacağı bildirilir.

Nəşrin məlumatına görə, kompleksin yerləşdirilməsində məqsəd Çinin son illər dənizdə artan fəallığına qarşı cavab tədbirlərinin görülməsidir. Bundan əlavə, həmin komplekslər Yaponiya özünümüdafiə qüvvələrinə uzaq sərhədlərin mühafizəsini möhkəmləndirməyə imkan yaradacaq. Məsələn, Miyako adası Okinavadan 300 kilometr məsafədə yerləşir. Yaponiyanın malik olduğu "dəniz-gəmi" raket qurğuları isə cəmi 200 kilometr radiusda məsafəni əhatə edir.

Yaponiya son illər öz uzaq sərhədlərinin təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Bu yaxınlarda sərhədlərin müdafiəsini təmin etmək üçün iki min nəfərlik heyətə malik xüsusi Mobil Amfibiya Qüvvələri yaradılıb.

## Pakistan və Hindistan sahib olduqları nüvə obyektlərinin siyahısını bir-birinə təqdim ediblər



Pakistan və Hindistan sahib olduqları nüvə obyektlərinin və qurğularının siyahısını diplomatik yolla bir-birinə təqdim ediblər. Siyahıların qarşılıqlı şəkildə təqdim edilməsi nüvə obyektlərinə hücumun qadağan olunmasına dair müqaviləyə əsasən reallaşdırılıb.

Bu siyahılar ilk dəfə 1992-ci il yanvarın 1-də tərəflərə təqdim olunub. Bu prosedur artıq 28-ci dəfədir həyata keçirilir.

1988-ci il dekabrın 31-də imzalanan və 1991-ci il yanvarın 27-də qüvvəyə minən müqaviləyə əsasən, Pakistan və Hindistan öz ərazilərində olan nüvə obyektləri barədə hər il bir-birilərinə məlumat verirlər.

**AZƏRTAC-ın materialları əsasında**

Ovqat

# Yaşıl yarpaq
## və yaxud ölümsüzlük düsturu



Mahiyyəti vətənpərvərlik olan tədbirlər düşüncələr üçündü. - Vətən naminə nələrsə xatırladılır, xatırladılanlar düşüncələri durulaşdırır...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında 23 iyun 2018-ci il tarixli sərəncamı böyük məsuliyyətlə yerinə yetirilir. Ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani olan tədbir - "Mən öz Xəzərimə vurğunam, ey dost" - mahiyyəti etibarilə ehtiram tədbiridi.

"Həmişə 26 yaşlı Mixaylo kimi xatırlanacaq qəhrəmanın ömrü ölümsüzlük düsturudu", - düşünürəm. Təlim və Tədris Mərkəzində Mixaylonun - Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 26 illik ömür yolunu, 4 illik döyüş yolunu əks etdirən stend-kompozisiyanı bu möhtəşəm tədbirin remarkası bilirəm.

Unudulmayan, unudulmayacaq Mehdi Hüseynzadənin - Mixaylonun uşaqlıq, yeniyetməlik, tələbəlik illərini, Stalinqradın müdafiəsi döyüşlərində iştirakını, partizan olaraq Sloveniyanın alman-faşist işğalçılarından azad edilməsi naminə döyüşlərdə göstərdiyi qəhrəmanlıqları əks etdirən stend-kompozisiya müstəqil, bitkin əsər qüdrətindədi, düşüncələri titrədən bir bədii sualın - "Mixaylo kim olub, kimdir?" sualına məntiqi cavab təsirindədi. Stend-kompozisiya belə dərk edilir. Rejissura ona görə mükəmməldir ki, bu sərgi-kompozisiya tədbirin tərkib hissəsi kimi təqdim olunur.

Müharibədən - alman-faşist işğalçıları üzərində qələbədən sonra Stalin rejiminin sərtliyini sındırmaq, qəhrəmana halalı olan adın verilməsinə nail olmaq nəinki çətiniydi, bəlkə də mümkünsüzüydü. Böyük tarixi şəxsiyyət Heydər Əliyev mümkünsüzlüyü mümkünləşdirməyə nail oldu. - Əsirlikdən qaçan, partizan olaraq vuruşan, yüksək kəşfiyyatçılıq məharətiylə almanlara müqayisəyəgəlməz ağır zərbələr vuran Mixayloya - Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Bu ad Sloveniya qəhrəmanının qəhrəmanlığının dövlət səviyyəsində etirafı, etirafın rəsmən təsdiqi idi. Stend-kompozisiyada bu fakt da öz əksini tapıb...

Məzmununa, mahiyyətinə görə stend-kompozisiya Müdafiə nazirinin, Mədəniyyət nazirinin, Təhsil nazirinin diqqətini çəkir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu məzmunlu stend-kompozisiyanı ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında mühüm vasitələrdən biri kimi dəyərləndirir...

Teatrlaşdırılmış yubiley tədbiri bir azdan başlayacaq...

Bir azdan Mixaylonun - Mehdi Hüseynzadənin ruhunun səsini eşidəcəyik: "Mən öz Xəzərimə vurğunam!". Bu, Vətən sevgisidi. Hamı bu sevgini ölümsüzlük düsturunun tərkib hissəsi, əsas arqumenti bilir. Bir də bu dönməz sevgiyə söykənən bir istəyin çırpıntıları tərpədəcək düşüncələrimizi: "...bir sarı yarpaq olaydım!..".

Mehdimizin bu şeirini çox oxumuşam, çox eşitmişəm. Bu gün qədərsiz duyğusallıqla, qədərsiz həsədlə dinləyirəm; məzmun (poetika) bu gün düşüncələrimin nizamı zaman anlamında dünənli, zaman anlamında sabahlı tarixin qüruruna sığınır. Bu şeir nə deyir?

Ağacların saralmış yarpaqlarını budağından xırdaca-xırdaca əsən meh də üzür, gah arzulanmayan, gah arzulanan yerəcən aparır. Vətəni hansı səviyyədə sevməlisən ki, qürbətdən Vətənə qayıtmaq üçün saralmış yarpaq olmağı da arzulayasan. Təbiətin yaşıl yarpaqlarının saralması fəlsəfəsini şeirləşdirmək duyumun, onu düşüncələr sisteminə hopdurmaq duyğunun qüdrətidi. Yaşıl yarpaq - ömür, yaşılın saralması - qürbət ağrıları yozumları günahdımı? - yox, günah deyil, obrazlarla düşünməkdi, görüntünü obrazlaşdırmaqdı...

Teatrlaşdırılmış yubiley tədbirində mizanların hər biri eyni mətləbə xidmət edir: tanıdığımız, sevdiyimiz Mixaylonu yenidən tanıtmaq. Mixaylo obrazını yaradan aktyorun ifasında bu şeir vətənpərvərlik odası kimi dinlənilir. Dinləyə-dinləyə düşünürəm: Qürbət ağrılarıyla, sıxıntılarıyla saralmış yarpaqların budaqdan üzülməsi, yellərin onu hara gəldi aparması arasında məzmun, mahiyyət yaxınlığı, oxşarlığı varmış. Bu yaxınlığı, oxşarlığı Sloveniyada rəğbətlə, ehtiramla, Almaniyada qəzəblə, hiddətlə Mixaylo kimi tanınan Mehdi Hüseynzadə hələ 1944-cü ildə duymuşdu:

*Kaş ki,*
*mən bir sarı yarpaq olaydım,*
*Sabahın yelləri alaydı məni.*
*Aşaraq o qarlı uca dağları,*
*Vətən torpağına salaydı məni...*

Misraların bədii dəyəri, bədii "mən"in istəyinin mahiyyəti, mahiyyətin dönməzliyi heyrətdi, heyrət olduğu qədər də həsəddi. Bu həsədi, bu heyrəti yaşamağı bacarmaq da səadətdi....

Şair ola-ola şairəm deməyən, rəssam ola-ola rəssamam deməyən (əməliyyatda olduğuna görə Şultsa rəssamam demişdi) Mixaylo marığa yatan ölümlərin tünlüyündən bir işığa doğru gedirdi - öldürə-öldürə, dağıda-dağıda, partlada-partlada. Bu işıq qələbə idi, bu işıq haləyə dönüb Azərbaycana vurğunu olduğu Xəzərin sahillərinə, Novxanısına aparacaq yolu nurlandırırdı...

Kompozisiya ona görə təsirlidir ki, ssenari əsasında muğam parçalarında Mehdi Hüseynzadənin şeirləri oxunur. Və gözlənilmədən "Gözlə məni" səslənir. Həsrətlilərin insafsız həsrətinə məlhəm olmağa qüdrəti çatmasa da, duyğusallıqla səslənir.

İsa İsmayılzadənin "Böyüdülmüş şəkillər" poemasından bir misranı xatırlayıram: "...getdilər, getdilər Berlinə sarı...". Qarabağda döyüşlərdə həlak olanlar Azərbaycan Ordusunun Qarabağda qazanacağı qələbəyə doğru gedirdilər. Döyüşlərə gedəndə "Gözlə məni, qayıdacam..." deyənlər də olmuşdu. Gözləyənlər illərlə gözlədilər, son nəfəsəcən gözlədilər. İndi ruhları gözləməkdədi. Ağabala Abdullayevin ifasında "Gözlə məni" uzaq Adriatik sahillərində qəhrəmanlıq tarixi yazan Mixaylonun ruhu üçün səslənir, Mixaylonun ruhunun timsalında Böyük Vətən müharibəsində, Qarabağda və onun ətrafında gedən döyüşlərdə şəhid olanlarımızın ruhu üçün səslənir.

Teatrlaşdırılmış yubiley tədbirində hər mizan məzmunludu, müəyyən ideya yükünə malikdir:

Mehdi müharibəyə gedir. Şeirlərində "Mehribanım", - deyə müraciət etdiyi qız da onu yola salanların sırasındadı. Bir tərəfə çəkilib məlul-məlul baxır. Mehdinin anası, bacıları bu baxışlarda uçunan incə gileyi duyur: "...insafınız olsun...". Duyurlar və bir qədər uzaqlaşırlar. Bu vida tədbir iştirakçılarının ürəyini göynədir, Mehdinin əzizlərinin gözlərindən yaş dərdiyinə zərrəcə şübhə etmirəm.

Mehdi Hüseynzadə müharibəyə gedəndə 21 yaşı vardı. "Gözlə məni...", - demişdi. Özü qayıtmadı, ruhu qayıtdı; uzaq sahillərdə qərar tuta bilməzdi. Ruhu "Gəlmişəm...", - deyir elə bil - duyulur, duyuruq. Bu tədbir həm də ruhun qayıdışına ehtiram tədbiridi.

Aktyorlar bu məqamları o qədər duyğusallıqla təqdim edirlər ki, özünü 77 il əvvəldə, müharibəyə gedənlərin sırasında hiss edirsən...

Mehdi - Mixaylo səs oxşarlığıymış.

1942-ci ildə döyüşdə ağır yaralanan Mehdi əsir düşmüşdü. Az sonra 1943-cü ildə əsirlikdən qaçmışdı, Sloveniyada alman-faşist işğalçılarına qarşı mübarizə aparanların - partizanların sırasındaydı. Qısa müddətdə şücaətiylə, cəsarətiylə tanınmışdı. Orta məktəbdə alman əsilli müəllimindən alman dilini mükəmməl öyrənməsi onun almanların əhatəsində irimiqyaslı əməliyyatlar aparmasına, partlayışlar, dağıntılar törətməsinə vəsilə olmuşdu - Mehdi Hüseynzadə qəhrəman kimi tanınmışdı. Əvvəl partizanlar, sonra sloveniyalılar Mehdini sloveniyalı qəhrəman Mixaylo kimi sevdilər, Mehdini Mixaylo çağırdılar; azərbaycanlı Mixayloya sevgi, ehtiram Sloveniyalı Mixayloya sevginin, ehtiramın davamıydı; Mixayloların ömrü ölümsüzlük düsturdu...

Teatrlaşdırılmış yubiley tədbirində bir məqam da təqdim edilir. - Mixaylonun dəfni. Partizanların komandiri Mixaylo haqqında danışır. Hər kəlmədə qəhəri aşan qürur, sevgi, ehtiram. 74 il əvvəl deyilən kəlmələr Mixaylonun qəhrəmanlığını ifadə edə bilməsə də, bu qürura, bu sevgiyə, bu ehtirama bağır basıram. - Bu səmimi kəlmələrdə Mixaylonun timsalında Azərbaycana ehtiram görünür - Mixaylo öz ömrünü yaşamayıb, xalqının adını yaşatmaq üçün yaşayıb. Budur ölümsüzlük düsturu!

Tədbir tanıdığımız Mixaylonu yenidən tanıtma missiyasıdı. Möhtəşəm sevgiyə möhtəşəm ehtiramın tədbiridi. Hamını eyni duyğular birləşdirib. Baxışlar deyir ki,

*Anım tədbiridi...*
*Anırıq... Burda*
*Hər şey nizamında,*
*yerli-yerində.*
*Yenidən,*
*yenidən tanıya bildik*
*Biz də Mixaylonu*
*günün birində.*

...Təbiətin hökmüdü: yaşıl yarpaqlar saralır. Bəşəriliyin hökmüdü: ölümsüz ömürlər əbədiyyətin cığırdaşı olur. Belə ömürlərə ölümsüzlük düsturu deyirik; Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin - Mixaylonun ömrü ölümsüzlük düsturudu. "Mən öz Xəzərimə vurğunam, ey dost" tədbirini bu ömrə ehtiram uvertürası bilirəm. Onu da bilirəm ki, bu uvertüra Azərbaycan Ordusunu Böyük Qələbəyə çağırır...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# ANAMA 2018-ci ilin yekunları barədə hesabat yayıb

*Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) 2018-ci il ərzində ərazilərin mina və partlamamış hərbi sursatlardan (PHS) təmizlənməsi əməliyyatları barədə hesabat yayıb.*

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, 2018-ci il ərzində agentlik tərəfindən Abşeron, Ağcabədi, Ağdam, Ağstafa, Astara, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Daşkəsən, Füzuli, Goranboy, Göygöl, İsmayıllı, Lənkəran, Masallı, Naftalan, Qaradağ, Qax, Qazax, Salyan, Şəmkir, Tərtər, Tovuz, Ucar, Xaçmaz, Xızı, Xocavənd, Yevlax, Zaqatala rayonları və Bakı, Gəncə, Sumqayıt şəhərləri ərazisində 45 milyon 492 min 690 m$^2$ (4 549.27 ha) ərazi yoxlanılıb, 11 min 743 ədəd partlamamış hərbi sursat (PHS), piyada əleyhinə 29 və tank əleyhinə 17 mina (cəmi 11,789 ədəd) aşkar edilərək zərərsizləşdirilib.

İndiyədək cəmi 532 milyon 169 min 188 m$^2$ (53,216.92 ha) ərazi təmizlənib, 801 min 155 mina və partlamamış hərbi sursat (PHS) tapılaraq zərərsizləşdirilib.

2018-ci il ərzində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) "102" Xidməti-Zəng Mərkəzindən - 147 (yüz qırx yeddi), Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən - 134 (yüz otuz dörd), Dövlət Sərhəd Xidmətindən (DSX) - 10 (on), rayon polis şöbələrindən (RPŞ) - 4 (dörd), Rayon İcra Hakimiyyətindən (RİH) - 2 (iki) və Dövlət Təhlükəsizliyi Xidmətindən - 1 (bir) müraciət daxil olub (cəmi çağırış: 298). Müraciətlər əsasında Ağdam, Ağcabədi, Ağstafa, Astara, Abşeron, Daşkəsən, Beyləqan, Biləsuvar, Bərdə, Cəlilabad, Füzuli, Tərtər, Tovuz, Qazax, Qax, Qaradağ, Naftalan, Goranboy, Göygöl, Yevlax, Xızı, Xaçmaz, Şəmkir, Salyan, İsmayıllı, Lənkəran, Zaqatala rayonları, Bakı, Gəncə və Sumqayıt şəhərləri ərazisində 412 min 368 m$^2$ ərazi təmizlənmiş, 5637 ədəd partlamamış hərbi sursat (PHS), piyada əleyhinə 2 və tank əleyhinə 10 mina (cəmi 5649 ədəd) aşkar edilərək yerli əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Agentliyin Mərkəzi Məhvetmə ərazisinə daşınaraq zərərsizləşdirilib.

2018-ci il ərzində Tərtər və Gədəbəy rayonlarının ərazisində 2 mina hadisəsi baş verib, nəticədə 3 mülki vətəndaş bədən xəsarətləri alıb.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 9
Nüsxə 3950